# Şəhidlərin təltif olunduqları ordenlər ailələrinə təqdim edilib

30 illik vətən həsrətinə, erməni işğalına son qoyulması ilə nəticələnən 44 günlük Vətən müharibəsində abşeronlu gənclər də böyük qəhrəmanlıq nümayiş etdirmişlər. Belə oğullardan biri də şəhid Fərid İlyasovdur.

F.İlyasov Prezident İlham Əliyevin sərəncamı ilə ölümündən sonra 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilmişdir.

Abşeron Rayon İcra Hakimiyyətində ordenin ailəsinə təqdimetmə mərasimi keçirilib. Tədbirdə Abşeron Rayon İcra Hakimiyyətinin başçısı Abdin Fərzəliyev, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Abşeron rayon şöbəsinin rəisi, polkovnik Cəfər Rəcəbov, Naxçıvan Muxtar Respublikasının "N" saylı hərbi hissənin zabiti, polkovnik-leytenant İntiqam Ağasıyev, şəhidin babası Əlövsət İbrahimov və anası Bəsirə İlyasova iştirak ediblər. Çıxışlarda bildirilib ki, ordumuzun döyüş meydanında əldə etdiyi şərəfli qələbədə igidlərimizin göstərdiyi şücaətlər danılmazdır. Hazırda işğaldan azad olunan ərazilərdə böyük quruculuq işləri həyata keçirilir. Kəndlərimiz, şəhərlərimiz yenidən qurulur və artıq soydaşlarımız öz dədə-baba yurdlarına köçməyə başlayıblar. Həmçinin qeyd olunub ki, ölkəmizdə, o cümlədən Abşeron rayonunda şəhid ailələrinə və qazilərə dövlət səviyyəsində böyük diqqət və qayğıkeşlik göstərilir.





Şəhidin ailəsi adından çıxış edənlər övladlarının Vətən müharibəsində göstərdiyi şücaətə görə ordenlə təltif olunmasından iftixar hissi keçirdiklərini deyiblər və onlara göstərilən diqqətə görə dövlət başçısına minnətdarlıq ediblər.

Sonda orden şəhidin ailəsinə təqdim olunub.

***Akif ƏLİYEV,***
***"Azərbaycan"***

* * *

Xəbər verildiyi kimi, Prezidentin 25 iyun 2022-ci il tarixli sərəncamı ilə xüsusi təyinatlıların kəşfiyyat komandiri, Şuşa şəhəri ətrafında gedən döyüşlərdə şəhid olan kapitan Mikayıllı Samir Sabir oğlu ölümündən sonra 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilmişdir.

Ağcabədi rayonunda ordenin şəhidin ailəsinə təqdimat mərasimi keçirilib. Mərasimdə YAP Ağcabədi rayon təşkilatının sədri Rövşən Əhmədov, Naxçıvan Əlahiddə Ümumqoşun Ordunun "N" saylı hərbi hissəsinin ideoloji iş və mənəvi-psixoloji təminat üzrə komandir müavini, polkovnik-leytenant Cəbrayıl Nəbiyev, hüquq-mühafizə orqanlarının nümayəndələri, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Ağcabədi rayon şöbəsinin məsul işçiləri, Ağcabədi Rayon İcra Hakimiyyətinin əməkdaşları, Salmanbəyli kənd sakinləri, şəhid ailələri, müharibə iştirakçıları, qazilər, bir qrup əsgər və zabitlər iştirak ediblər. Mərasim iştirakçıları öncə şəhid Samir Mikayıllının dünyaya göz açdığı Salmanbəyli kəndində onun adına inşa edilmiş "Şəhid Samir Mikayıllı adına xatirə parkını" ziyarət edib, xatirəsinə ucaldılmış büstün önünə tər çiçəklər düzüblər.

Ağcabədi Rayon İcra Hakimiyyətində davam edən təqdimat mərasimində torpaqlarımızın azadlığı uğrunda canından keçən şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad olunub, Dövlət himni səsləndirilib. Çıxış edənlər şəhid Samir Mikayıllının keçdiyi şərəfli döyüş yolundan, onun Şuşa uğrunda gedən döyüşlərdə göstərdiyi xüsusi qəhrəmanlıqlarından danışıblar.

Sonda polkovnik-leytenant Cəbrayıl Nəbiyev 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordenini şəhidin ailəsinə təqdim edib.

***Gündüz SEVİNDİK,***
***Ağcabədi***

Azərbaycan.- 2022.- 13 avqust.- S.12.